

*Mustafa Çəmənli*

# NƏŞRİYYATLARDA KEÇƏN ÖMRÜM

**(Xatirələr)**

**(əvvəli ötən şənbə saylarımızda)**

**Mən Vaqif müəllimin əlyazmasına redaktorluğu nəşriyyatımızda böyük redaktor işləyən şair Zülfüqar Şahsevənliyə tapşırdım. O da əlyazmasını diqqətlə oxuyub kitabın ümumi ruhuna layiq annotasiya yazdı. Yeri gəlmişkən deyim ki, kitabların ilk səhifəsində annotasiyaları, əsasən, nəşriyyat redaktorları yazırlar. Oxucunun və kitabxanaçıların kitabla ilk tanışlığı da məhz bu qısa annotasiyadan başlayır. Bu qısa annotasiyada kitabın gərək əsas məziyyətləri öz əksini tapsın. Annotasiya yazmaq göründüyü qədər də asan deyildir. Heç də nəşriyyatda çalışan bütün redaktorlar yaxşı annotasiya yaza bilmir. Nümunə üçün burada Zülfüqar Şahsevənlinin "Mən burdayam, İlahi" kitabına yazdığı annotasiyanı dərc edirəm: "Bu şeirlərdə pıçıltı-pıçıltı açılan çiçəklərin səsi, nəfəsi, qürub çağının bənzərsiz rəngləri, uzaq, yaşıl bir adanın tənhalığı, Ay işığından könüllərə yol çəkən, müqəddəs "dərdin, kədərin özündən belə dostlarına, doğmalarına səadət yaratmaq" istəyən qərib bir şairin sehrli dünyası var.**

Vaqif Səmədoğlu! Şeirlərini həmişə həsrətlə gözlədiyimiz, sevə-sevə oxuduğumuz Azərbaycanımızın bənzərsiz şairi...

Əziz oxucu, "Mən burdayam, İlahi..." tanrımızla, taleyimizlə görüşdü. Gəlin, zeytun kölgəsinin sərinliyi hopmuş, iyirmi beş illik uzaqlıqdan yol gələn bu qərib nəğmələri birlikdə oxuyaq".

Bu kitabın nəşrinə şairin dostları kömək etmişdilər. Kitabı o zaman "Qızıl Şərq" mətbəəsində min beş yüz tirajla nəşr etdirib Vaqif müəllimə verdik. Bu kitabın sürətlə satılacağına zərrəcə şübhə etmirdik. Çünki uzun illər idi Vaqif Səmədoğlunun kitabı nəşr olunmurdu.

Aradan iki il keçmişdi. Vaqif müəllimlə ara-sıra görüşürdük. O, bir gün nəşriyyata bir nəfər dostu ilə gəldi. O zaman işləmirdi, millət vəkili də seçilməmişdi. "Uzaq yaşıl ada" adlı yeni şeirlər kitabını çap etdirmək istəyirdi. Bu kitabı ömür-gün yoldaşı Nüşabə xanım tərtib eləmişdi. Mən kitabın həcmini hesablatdırandan sonra "Qızıl Şərq" mətbəəsinin istehsalat şöbəsinin müdiri Sara xanıma zəng vurub, kitabın formatını, tirajını, səhifəsini söylədim. Vaxt istədi ki, hesablayıb neçəyə başa gələcəyini deyəcək. Aradan bir az keçmiş təkrar zəng etdim. Sara xanım nazik üzlə, min nüsxə tirajla kitabın min iki yüz dollara başa gəldiyini söylədi. Vaqif və dostu qiymətlə razılaşdılar, sabah gələcəklərini söyləyib getdilər. Səhəri gün hər ikisi deyilən vaxtda yanıma gəldilər. Vaqif müəllimin dostu min üç yüz dolları sayıb mənə verəndə mən də yüz dolları ayırıb sahibinin yox, Vaqif müəllimin döş cibinə qoydum.

Vaqif müəllim gülümsəyib:

- Köhnə dost bələdi də, - dedi, - qabaqcadan qonorar da verir.

Gülüşdük. Sağollaşıb getdilər.

Vaqif Səmədoğlu bu yeni kitabına kiçik bir ön söz yazmışdı. Bu ön sözdə onun sevimli yazıçımız Anara sonsuz dost sevgisini gördüm. Onun bu qısa yazısında əsl dostun necə əlçatmaz bir dəyər olduğunu bir daha dərk etdim. Görünür, fransız filosofu F.Volter belə söyləməkdə haqlı imiş: "Bu dünyanın bütün nemətləri bir yaxşı dosta dəyməz". Elə Vaqif Səmədoğlu da Anarın şəxsində özünə dünyanın bütün nemətlərindən üstün tutduğu dost tapmışdı. Bunu onun "Uzaq yaşıl ada" kitabına yazdığı bu kiçik yazısından da görə bilərik: "Əziz oxucu! Bu kitabın içindəki şeirlərin əksəriyyətini, poemaların hamısını mən itmiş, ölmüş hesab edirdim. Elə bilirdim ki, onlar da 70-ci illər yaradıcılığımın aqibətinə uğrayıblar. Xoşbəxtlikdən, belə olmadı. Xoşbəxtlikdən, yer üzündə Dostluq, Qayğıkeşlik, Məhəbbət və Etibar varmış. Anar varmış yer üzündə. Dost şeirlərini öz arxivində saxlayan, özünün yaradıcılıq, ictimai fəaliyyət, ailə qayğıları vaxtından kəsib, bu yazıları makinada köçürən, sahmana salan Anarım varmış. Nə deyim? Məni mənə qaytaran, ölü sandığım yazılarımı mənə dipdiri bəxş edən bir insana dilimizin hansı sözləri ilə minnətdarlığımı bildirim? Allah səni mənə çox görməsin, Anarım..."

Vaqif Səmədoğlu çox həssas adamdı, nəşriyyatda ona olan qayğımızı, sayğı və məhəbbətimizi görüb bu bələdçi yazısında bizi də unutmamışdı: "Və nəhayət, "Gənclik" nəşriyyatına dərin təşəkkürümü bildirirəm. Sayı çox olmasa da, mənim bütün kitablarım bu nəşriyyatda çap olunub. Allah qoysa, qalan kitablarım da burdan üzə çıxacaq. Çünki bu nəşriyyat məni, mən də "Gənclik"də çalışan dostlarımı sevirəm.

Oxucudan isə bircə xahişim var: Bu kitabı açarkən dözümlü ol, bacarsan, sevə-sevə oxu yazılarımı, bacarmasan, məni bağışla...

**Vaqif Səmədoğlu**
**12.02.99"**



**Vaqif Səmədoğlu və Mustafa Çəmənli**

Mən "Uzaq yaşıl ada" kitabının üz qabığını rəssam Etiram Lazımova çəkdirdim. Sara xanım Qazıyevadan da xahiş etdim ki, bu min nüsxə kitabın iki yüzünü qalın cilddə çap etsinlər, Vaqif müəllimə hədiyyə edim. Sağ olsun, sözümü yerə salmadı. Çap olunmuş kitabları mətbəədən götürəndə qalın cildli nüsxələri görən Vaqif Səmədoğlunun baxışlarındakı ifadəni sözlə izah eləmək olmaz. Xoşbəxtlikdən adamların nə dediklərini eşitməsəm də, nə deyə biləcəklərini dəqiq bilirəm.

Vaqif Səmədoğlunu "Gənclik" nəşriyyatında bir də 2005-ci ildə gördüm. "Mən burdayam, İlahi" kitabını təkrar çap etdirmək istəyirdi. Kitabın tərtibçisi və redaktoru şairin çox sevdiyi xanımı Nüşabə Babayeva - Vəkilova idi. Kitabın annotasiyasında bildirilirdi ki, şairin ilk böyük şeirlər kitabı olan "Mən burdayam, İlahi" 1996-cı ildə kiril əlifbası ilə işıq üzü görmüş, indi isə latın qrafikasıyla nəşr edilmiş həmin kitabı oxuculara şairin son illərdə yazdığı bir neçə şeirlərinin əlavəsiylə təqdim edirik".

**Allah, bir az da möhlət ver,**
**Öldürmə, sağ saxla yenə.**
**Beş-on yazılmamış şeirim,**
**Beş-on duam qalıb sənə...**

- deyən Vaqif Səmədoğlunu Yaradanımız eşidib ona yazıb-yaratmaq üçün otuz iki il də möhlət vermişdi.

İndi mən Vaqif Səmədoğlunun vaxtilə çap etdiyimiz kitablarını (onun pyeslər toplusunu da mən çap etdirmişdim) qarşıma qoyub vərəqləyirəm, oxuyuram, şeirlərindəki gözlənilməz deyimlərdən, hislərin bolluğundan, çəkiyə gəlməz fikir yükünün ağırlığından heyrətlənirəm. Budur, sanki Vaqif mənim indiki əhvalımı, ovqatımı əvvəlcədən görüb yazıb:

**Ürəyimin qapısı**
**Səhərdən açıq qalıb,**
**Könlüm bu gün ruhumu**
**Qovub yollara salıb...**

**Dərd məni üstələyər**
**Sən dadıma çatmasan.**
**Aydınlığa çıxmaram**
**Sən qolumdan tutmasan...**

***

2000-ci ilin yaz fəsli idi. Pəncərə önündə dayanıb, çiçəkləmiş ağaclara baxırdım. Birdən qapı açıldı.

- Gəlmək olar?

Səsə çöndüm. Müəllimim qarşımda dayanmışdı. Görüşdük. Onun nurlu baxışları üzümdə dolaşdı. Qoltuğundakı qovluğu stolun üstünə qoydu:

- Bunu oxu, gör ağlın nə kəsir.

- Yaxşı, oxuyaram, - dedim.

Qəribədi, adam yaşa dolub oğul-uşaq sahibi də olsa, müəllimini görəndə yaşını unudur. Mən də uzun illərdən sonra Qara müəllimi qarşımda görəndə elə bildim 11-12 yaşındayam. Bir anda o əziz, unudulmaz məktəbli günlərimə döndüm. Elə sandım 1958-ci ildi. Alı yüzbaşının ikimərtəbəli mülkünün birinci mərtəbəsində dərs keçirik. Birdən sinif müəllimimiz: - Uşaqlar, məktəbimizə təzə direktor gəlib, - deyir, - bu ildən məktəbimiz onillik olacaq.

Bu, Qara Hüseynov (Bəndalıoğlu) idi.

Qara müəllim həm də bizə tarix fənnindən dərs deyirdi. Çox yaxşı təşkilatçı, tələbkar bir məktəb direktoruydu. O, məktəblilərin gücünə o zaman kərpic kəsdirib əlavə sinif otaqları tikdirmişdi. Bütün məktəblilər ancaq səhər növbəsində oxuyurdu. Bu minvalla Qara müəllim düz on səkkiz il bizim Çəmənli kənd orta məktəbinə rəhbərlik elədi, camaatımızla qaynayıb-qarışdı. Daha sonra o, iyirmi il də Ağdam təhsil şöbəsinin müdiri işlədi. Bu maarif fədaisinin birbirinin ardınca fəxri fərmanlar, "Şərəf nişanı" ordeni, "Qabaqcıl maarif əlaçısı" döş nişanı medalı aldığını eşidəndə biz müəllimimizlə fəxr edirdik. O da şagirdlərinin uğurlarına sevinərdi. Amma bu bəxtəvər günlərə Qarabağ müharibəsi nöqtə qoydu. Bu müharibə, erməni daşnaklarının əsassız torpaq iddiaları bizə dərd-kədər, ölüm-itim, məhrumiyyətlər gətirdi. Biz öz yurdumuzda qaçqına, köçkünə döndük. Yox, bu "qaçqın", "köçkün" ifadələri bizim ürəyimizdəkilərin mində birini əks etdirmir. Qara müəllim də doğma Ağdamı, ata yurdu Bağmanları itirdi. Amma onu bu itkidən daha çox könülü döyüşə atılmış şagirdlərinin itkisi, şəhid oğullarımızın ruhlarının harayı, anaların ah-naləsi, qız-gəlinin fəryadı narahat edirdi. Axı, Qara müəllim bu oğulların əksəriyyətini tanıyırdı...

Bəli, torpaq itkisinə heç o qəlbi dağlar da dözməzdi, biz dözdük, ancaq bizə dərd güc gəldi. Dərdini az da olsa ovundurmaq, öz müəllimlik, vətəndaşlıq borcunu qismən də olsa qaytarmaq üçün Qara müəllim Ağdam şəhidlərindən bəhs edən iki kitab - "Şaxta vurmuş çiçəklər" (1995), "Açılmamış qönçələr" (2000) kitablarını çap etdirdi. Onun mənə təqdim etdiyi əlyazmasını oxuyanda gördüm ki, dərd bu maarif fədaisini, mənim tarix müəllimimi şair eləyib. Mən Qara müəllimin şairlik qabiliyyətini onun əvvəlki kitablarında şəhidlərə ünvanlanmış şeirlərindən duymuşdum. Ona görə də əlimdəki şeirlər toplusu məni heç də heyrətləndirmədi.

Onun "Qəlbimin harayı" şeirlər toplusu vətənpərvər, qaçqın, köçkün həyatının min bir müsibətlərini öz gözüylə görmüş, özü də bu həyatın bir parçasını yaşayan duyarqəlbli bir insanın fəryadı idi:

**Nişan aldım, əlim əsdi, bilməm niyə atmadım,**
**O, düşmənin körpəsiydi, mən günaha batmadım.**
**Gedib gördüm evim yanıb, balamı da qəhr edib.**
**Düşündüm ki, zalımlıqda mən yağıya çatmadım...**

Qara müəllimin şeirləri şairlik iddiasından çox uzaq olan, bu ayamını öz adının əvvəlində səsləndirməyən, el-obasına dərin mənəvi tellərlə bağlı bir ağsaqqalın qəmli pıçıltılarıdır:

**Erkən üfüqlərdə ildırım çaxdı,**
**Elə bil göylərdən qurğuşun axdı.**
**Günahsız qanlara dözmədi günəş,**
**Ovcuyla götürüb üzünə yaxdı.**

Nə gizlədək, biz bu gün də Qarabağ adlı böyük bir faciənin içindəyik. Amma gəlin görək başımıza gələn müsibətləri, torpaq itkisinin necə böyük bir dərd olduğunu bütün çılpaqlığı ilə hamımızmı dərk edirik? Məncə, yox. Bir çox qələm sahibləri bu fikirdədir ki, Qarabağ müharibəsindən, Xocalı faciəsindən bir müddət keçəndən sonra, daha soyuq başla gözəl sənət əsərləri yazmaq mümkündür. Bəlkə də, belədir. Bəlkə də, haqlıdırlar. Ancaq mən Qara müəllimin kədərdən yoğrulmuş, həsrət və nisgildən şirə çəkmiş, zərif duyğulardan ilmələnmiş bu ürək parçalayan, bizi döyüşlərə, şücaətə səsləyən şeirlərini oxuyanda "Bu günün dərdini, müsibətini sonra yazaram" fəlsəfəsinin, sadəcə, özünü aldatma olduğunu gördüm. Əlbəttə, sənətkarlıq baxımından Qara müəllimin də şeirlərində qüsurlar tapmaq mümkündür, amma bu şeirlərdəki səmimiyyətə, can yanğısına dodaq büzmək insafsızlıq olar.

Mən o zaman Qara müəllimin "Qəlbimin harayı" kitabını "Şirvannəşr"də çap etdirdim. Çox razı qaldı.

**Yurd dərdi Qara müəllimi heç vaxt tərk etmədi. Təəssüf ki, Qarabağı, doğulduğu Bağmanlar kəndini görmək ona qismət olmadı. 2013-cü ildə dünyasını dəyişdi. Vəsiyyətinə görə, doğma Çəmənli kəndində torpağa tapşırıldı. Allah rəhmət eləsin.**

**(ardı gələn şənbə sayımızda)**